# MÜQƏDDƏS TORPAĞA ŞANLI QAYIDIŞ

## *Azad Şuşada Azərbaycanın görkəmli dövlət xadimi, mütəfəkkir, şairə Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunan tədbir və Şuşaya ilk səfərim*

İnsan həyata gəlib ağlı kəsəndən həyatdan köçdüyü son ana kimi onun qəlbində daim dolaşan bir çox arzuları olur. Bəzən o arzular həyata keçmir, bəzən isə yuxu kimi gördüyümüz arzular çin olur, yerinə yetir və sən muradına çatmağının ləzzətini hiss edirsən, ancaq bəzən də o arzuların gerçəkləşməsini sadəcə göylərdən, ruh gözü ilə seyr edə bilirsən. İnsan hərdən elə arzular arzulayır ki, o arzu üçün ölümə də gedir, canını da fəda edir, sağlamlığından da keçir. İnandığı yolda inamla irəliləyən, yeriyən, bu yolda sona qədər çalışan, çabalayan insan o yolun sonuna mütləq mükafatı olaraq çatır. O, zəhmətinin bəhrəsini görsə, qəlbiylə, görməsə, ruhu ilə yaşayır, arzusunun həyata keçməsini hiss edir. Bəzən isə eyni bir arzunu on minlərlə insan arzulayır və digər minlərlə insan da həmin o ümumi olan arzunu gerçəkləşdirir. Sonunda nə olursa, olsun, o insanlar o arzuların gerçəkləşməsi yolunda canını, canından bir parçanı fəda edir və fədai, şəhid, qazi adını qazanır. Arzular gerçəkləşdikdən sonra insanın ürəyi qanadlanır və bir quşa çevrilir. Arzusu gerçəkləşən insanın çöhrəsində iki hiss özünü büruzə verir: sevinc və şükranlıq hissi... Bir neçə gün əvvəl mənə də Allah nəsib etdi ki, mən illərdir arzusunda olduğum, şeirlərimdə zəfərimizə qədər adını həsrətlə, zəfərimizdən sonra isə adını çəkməkdən qürur hissi duyduğum o müqəddəs şəhərə - Şuşaya səfər etdim. O müqəddəs şəhərə çatanda mənim də çöhrəmdə həmin hisslər özünü büruzə verirdi. Göy üzündə Allahın, yer üzündə şəhidlərimizin, qazilərimizin, Ali Baş Komandanımızın, əsgər və zabitlərimizin sayəsində bizə bəxş olunan sevinc hissi və özümlə bərabər həm də millətimizin onlara ömür boyu edəcəyi təşəkkür, şükranlıq hissi... İndi mən uca Allaha şükür edirəm ki, mənim də şəhid qanı ilə müqəddəsləşmiş bu şəhərlə bağlı bir xatirəm oldu, arzularım gerçək oldu və mən, nəhayət ki, yerinin, torpağının altında köklərimin, əcdadlarımın olduğu ulu Qarabağı ziyarət edə bildim. Mən taleyimə yazılan o günü heç bir zaman unutmayacağam... Müqəddəs və müqəddəs olduğu qədər doğma olan Şuşa şəhərini ziyarət etdiyim tarix mənim üçün əlamətdar günə çevrildi: 9 sentyabr 2022-ci il...

Belə ki, 9 sentyabr 2022-ci ildə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Şuşa Şəhər Dövlət Qoruğu tərəfindən möhtəşəm Zəfərin nişanəsi olan Şuşa şəhərində, görkəmli Azərbaycan şairəsi, Azərbaycan qadınlığının, Şərq qadınlığının, analığının fəxri simvolu, qüruru və nümunəsi olan Xurşidbanu Natəvanın 190 illik yubileyi görkəmli şairənin erməni vandalları tərəfindən viran qoyulmuş, bir zamanlar saraydan da əzəmətli olan evinin qabağında keçirilirdi. Tədbir zamanı məlum oldu ki, bu evin qalıqları həm 19-cu əsrin, həm də 21-ci əsrin tarixini özündə əks etdirir. Belə ki, iki türk respublikasının iki türk başçısı, iki türk qardaş-cənab prezidentimiz İlham Əliyev və qardaş Türkiyə Respublikasının prezidenti



cənab Rəcəb Tayyib Ərdoğan məhz burada-Xurşidbanu Natəvanın evinin qarşısında keçən il o möhtəşəm bəyannaməni-tarixi Şuşa bəyannaməsini imzalamışlar.

Mən hörmətli Mədəniyyət nazirimiz cənab Anar Kərimovun xüsusi diqqəti və qayğısı, şəxsi təşəbbüsü sayəsində əvvəlcədən dəvət aldığımdan bu tədbirdə qonaq qismində iştirak etmək üçün səhər tezdən tədbirdə iştirak edəcək nümayəndələrin olduğu avtobuslardan birinə elə Bakı şəhərində Mədəniyyət Nazirliyi binasının yaxınlığında əyləşdim və taleyimə yazılan o şərəfli səyahətə, o müqəddəs ziyarətə yol almağa başladım. Yol boyu məni o müqəddəs torpaqlar, o gözəl yerlər, möhtəşəm Zəfərin yolu o qədər maraqlandırırdı ki, yuxum ərşə çəkilmişdi və bir an öncə o anın yetişməsini səbirsizliklə gözləyirdim. İllərlə səbir etsəm də, o tarixi anlara saatlar qalmış artıq səbir edə bilmirdim. Çünki Qarabağ mövzusu, Qarabağ həsrəti hər bir Azərbaycan övladının qəlbində yuva saldığı kimi, mənim qəlbimdə, varlığımda, düşüncəmdə, yaradıcılığımda da böyük iz qoymuşdu. Qarabağdan olan, məcburi köçkün ailəsinin ən kiçik bir fərdi olaraq sakini olsam da, orada yaşaya bilmədiyim, işğalda olan Qarabağ torpağı, Xocavənd torpağını da görmək məni çox maraqlandırırdı. Biz ailəlikcə Qarabağın erməni mənfurları tərəfindən işğalından, sözün əsl mənasında, çox çəkmişdik. Qeydiyyatda olduğumuz kəndimiz-Xocavənd rayonunun Muğanlı kəndi 2 oktyabr 1992-ci ildə erməni cəlladları tərəfindən işğal olunduğu günün səhərisi ana babam, böyük ziyalı insan Saleh Sadıq oğlu Həsənovun vəfatı təkcə başçısı olduğu ailəni deyil, bütün kənd camaatını, qohum-qardaşı kədərləndirmişdi və kəndimizin işğal olunduğu gün həm torpağımızın, həm də ailə başçımızın əlimizdən getməsi bizimkiləri olduqca sarsıtmışdı. Həmin vaxtdan təkcə ailəmiz deyil, bütün Azərbaycan xalqı tez bir zamanda torpaqlarımızın işğaldan azad olunmasını könüldən, qəlbdən arzulayırdı. Bu arzu bizi gecə-gündüz tək qoymurdu. Qarabağsız günlər bizi çox kədərləndirirdi. Hamımız bir idik, cəm idik və cəm olaraq bu acını yaşasaq da, elə bil ki, yenə də özümüzü cəm hiss etmirdik. Bizdən bir parça qopmuşdu və o parçanın adı Qarabağ idi...

Yenə də göydə Allaha, yerdə Ali Baş Komandana, şanlı Azərbaycan Ordusuna şükürlər, təşəkkürlər olsun ki, 30 il dilədiyimiz o diləklər, canımızı belə verməyə hazır olduğumuz o müqəddəs amal gerçəkləşdi və bu gün cənab Prezidentimiz demişkən, sözün əsl mənasında biz qayıtmışıq! Bu gün biz Qarabağın yarasını sarımaq üçün, yenidən Qarabağda birləşmək üçün qayıtmışıq! Qarabağı bərpa etmək, dirçəltmək üçün qayıtmışıq! Yol boyu bu fikirlər məni heç cür darıxmağa qoymur, daha da həyəcanlandırır, həvəsləndirirdi. Zəfər yolunda görüşünə gələcəyim, görəcəyim o gözəl yurdları düşündükcə ürəyim, qəlbim qanadlanırdı və cismimdən ayrılaraq bir quş kimi qanad açıb həmin yerlərə uçurdu. 6-7 saatlıq yol bu həyəcan və düşüncələr arasında getdikcə uzanırdı. Ancaq onu da fikirləşirdim ki, biz 2 ildir nəfəsimiz olan Şuşaya nəfəsdən də yaxınıq. Artıq Şuşanı qaytarmışıq, Şuşa bizim üçün əlçatmaz deyil. Ona görə də mənə çox uzun gələn bu yollar əslində yaxından yaxın, elə köksümüzdəki qəlbimizin içində idi.

Nəhayət, yurdumuzun bir çox



gözəl guşələrini, eləcə də dünyaya göz açdığım İmişlini gördükdən sonra Beyləqana, oradan da Füzulinin əvvəldən azad etdiyimiz ərazilərinə çatdıq. Füzuli adlı bu qəhrəmanlıq dastanının birinci hissəsini gözəndə başdan-başa abad olan şəhərlər, kəndlər gözümün önündə canlandı, bu xoş mənzərədən gözüm-könlüm açıldı. Ancaq onu da bilirdim ki, bu dastanın ikinci hissəsini açıb oxuyanda gözümün önünə bunun tam əksi olan, erməni barbarları tərəfindən yaradılmış viranəliklər, xarabalıqlar, dağıdılmış cənnət məkan canlanacaqdı. Üçüncü hissəni oxuyub bu dastanı tamamlayanda isə gözümün önündə dəmir yumruğu ilə düşmənin başını əzib sona qədər həmin dəmir yumruğu yerində, mənfur düşmənin başı üzərində saxlayan şanlı Azərbaycan əsgəri canlanacaqdı. Füzulinin əvvəldən azad etdiyimiz ərazilərinin sonuna -Arayatlı kəndinə çatanda gözümün önünə dayım, uzun illər daxili işlər orqanlarında məsul vəzifələrdə çalışmış, hazırda təqaüddə olan polis polkovniki, müharibə iştirakçısı Sahib Saleh oğlu Həsənovun da 15 il (1992-2007) rəhbərlik etdiyi Xocavənd rayon polis şöbəsinin əməkdaşları ilə birlikdə fədakarlıqla sonadək iştirak etdiyi, hətta İran-Azərbaycan sərhədində erməni separatçılarının (qondarma respublikanın) bayrağını şəxsən endirdiyi "Horadiz əməliyyatı" gəldi. 1-ci Qarabağ müharibəsi hələ bitməmiş Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən "Horadiz əməliyyatı", Horadizin fəthi, qurtuluşu bizim üçün son istifadə tarixi 27 sentyabr gününə qədər olan bir ümid işığı idi. Bu işıq 27 sentyabra qədər ermənilər və onların tərəfdarları tərəfindən nə qədər söndürülməyə çalışılsa da, cənab prezidentimiz İlham Əliyev tərəfindən yenidən yandırıldı, alovlandırıldı, şölələndi və bu işıq Qarabağın azadlığının məşəlinə çevrildi. Elə bu düşüncələr və bu fəxr, qürur hissi ilə Zəfər yoluyla Qarabağın işğaldan azad edilmiş ərazilərinin müqəddəs səyahətinə başladıq. Əvvəlcə, 27 sentyabr 2020-ci ildə Vətən müharibəsinin ilk gününün ilk anlarında şanlı Azərbaycan Ordusu tərəfindən düşmən işğalından azad olunan ilk kəndlərin xarabalıqlarını gördük. Onu deyim ki, Şuşaya qədər gördüyümüz tək şey xarabalıqdan başqa bir şey deyildi. Sadəcə Şuşaya çata-çatda bir-iki sağlam ev gördük və bildik ki, bura qədər talayan ermənilər burdan sonra da ancaq istifadə edib, yararlanıb, oğurlayıblar. Ona da şahid olduq ki, şanlı ordumuz bu əraziləri azad edərkən bir evə də dəyməyib, ziyanlıq vurmayıb, yandırmayıb, talamayıb, dağıtmayıb, bir evin bir kərpicinə də zərər yetirməyib. Bu da onlarla bizim ölçüyə belə gəlməyən müqayisəmiz. Bunu inkar edən hər cəsarətli şəxs o cəsarəti özündə tapıb bu Zəfər yolunda yeriyə bilər. Əgər bunu etsə, yol boyu görər ki, erməni mənfurları necə cinayətlər işləyib, hirsini, kinini, vəhşiliyini, barbarlığını təkcə yaşayan insanlardan deyil, ölülərin məzarlarından, cansız evlərdən, təbiətimizdən, meşələrimizdən, kənd-kəsəklərdən çıxıblar. Televiziya ekranlarında gördüyüm dağıdılmış məzarları canlı-canlı görmək mənə çox pis təsir etdi. Ancaq onu da fikirləşdim ki, qaniçənlərdən də elə bunu gözləmək olardı. Onsuzda tez bir zamanda ermənilərin yıxdığı bütün yerlər abad olacaq, indi dağıdılan yerlərin xarabalıqlarından gələcəkdə əsər-əlamət qalmayacaq. İndi də biz cənab prezident İlham Əliyevin Qarabağın yaralarını necə sarıdığının şahidi oluruq. Cənab prezidentin quruculuqla bağlı gördüyü təqdirəlayiq və sözün əsl mənasında böyük işlər hələ başlanğıcdır.

***(Davamı var)***

Sevindik Nəsiboğlu